**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**İQTİSADİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**AYNUR NƏBİ qizi BABAYEVA**

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ AZƏRBAYCAN SƏNAYESİNİN SAHƏVİ STRUKTURUNUN FORMALAŞMASI XÜSUSİYYƏTLƏRİ

İxtisas: 5312.01-"Sahə iqtisadiyyatı"

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI– 2017**

**Dissertasiya işi AMEA İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir**

**Elmi rəhbər:** i.e.d., prof. **G. Z. Yüzbaşıyeva**

**Rəsmi opponentlər:** i.e.d., prof. **M. C. Atakişiyev**

i.ü.f.d., dos. **N. B. Böyükkişi**

**Aparıcı təşkilat:** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu

Müdafiə 26 dekabr 2017-ci ildə saat 14.00 Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun nəzdindəki D.01.181 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti, 115. AMEA İqtisadiyyat İnstitutu.

Dissertasiya işi ilə AMEA-nın Mərkəzi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat 24 noyabr 2017 ci il tarixində göndərilmişdir.

D.01.181 Dissertasiya Şurasının elmi katibi,
iqtisad üzrə fəlsəfə doktoru S.T.Şixəliyeva

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı.** Həyata keçirilən iqtisadi islahatlar dövründə sənayenin sahəvi strukturu dövlət və özəl sektorlar, hasilat və emal sahələri arasında nisbətlərin dəyişməsi ilə xarakterizə olunmuşdur. İqtisadiyyatda sahəvi proporsiyaların (məhsul, kadrlar, maliyyə resursları) dəyişməsi amili zəruri etmişdir ki, münasib struktur yeniləşmənin həyata keçirilməsi üçün sənayenin sahəvi strukturunun inkişaf xüsusiyyətləri və formalaşma qanunauyğunluqları elmi cəhətdən təhlil olunsun. Son dövrlər iqtisadi inkişafla bağlı əldə olunan nailiyyətlər, xüsusən də dayanıqlıq və sabitlik amili sənaye sferasında qarşıya qoyulan məqsədləri daha tez gerçəkləşdirməyə imkan yaratmışdır. Bu həmçinin, dövlət tərəfindən aparılan iqtisadiyyatın modernləşdirilməsi və texnoloji inkişafa yönəldilmiş innovasiyalı tədbirlər kursunun köməyi ilə iqtisadiyyatın xammal asılılığından uzaqlaşmağı da nəzərdə tutur. Əsas maliyyə aktivlərinin iqtisadiyyatın xammal sektorunda cəmləşməsi və emal sahələrinə kifayət qədər investisiya qoyulmaması nəticə etibarı ilə köhnəlmiş texnologiyalar, sənayenin elmtutumlu sahələrində istifadə olunan fiziki və mənəvi cəhətdən aşınmış əsas fondlar mütərəqqi struktur dəyişikliklərinin yolunda ciddi problemlər meydana gətirmiş və bu istiqamətdə iqtisadi artımın imkanlarını məhdudlaşdırmışdır. Nəzərə almaq lazımdır ki, hasilat və emal sahələri arasında sahəvi proporsiyaların birincinin xeyrinə dəyişməsi sənayenin strukturunun pisləşməsinə səbəb olmuşdur. Məsələn, 2005-ci ildə hasilat sənayesinin xüsusi çəkisi 67,4%, emal sahələrinin xüsusi çəkisi 25,9% olmuşdursa, 2015-ci ildə bu nisbət müvafiq olaraq 67,0% və 24,3% təşkil etmişdir. Son on oldə hasilat sənayesinin hələ də yüksək olmasının səbəbi kimi struktur məsələlərə kifayət qədər diqqətin ayrılmamasını misal göstərə bilərik.

Sənayenin mövcud strukturu (xüsusən də qeyri-neft sektoru üzrə) deformasiyaya uğramış və bu da öz növbəsində əmək məhsuldarlığının azalması, buraxılan məmulatların əksəriyyətinin aşağı rəqabətqabiliyyətliliyi, dünya bazarında yerli məhsullara tələbin az olması ilə nəticələnmişdir. Həmçinin, qeyd etmək lazımdır ki, emal sənayesi sahələrinin çoxunun aşağı gəlirliliyi struktur-texnoloji modernləşdirmənin aparılmasına da maneələr yaratmışdır. Ona görə də bu sahədə aktiv dövlət siyasəti yeridilmədən qeyd olunan problemlərin aradan qaldırılması mümkün deyildir.

Araşdırılan sahədə iqtisadi vəziyyətin yaxşılaşdırılması üçün ölkə Prezidenti tərəfindən "Azərbaycan -2020: gələcəyə baxış" inkişaf konsepsiyası, "2015-2020-ci illərdə Azərbaycan Respublikasında sənayenin inkişafı üzrə Dövlət proqramı", "Azərbaycanda ağır sənayenin və maşınqayırmanın inkişafı üzrə strateji yol xəritəsi" qəbul edilmişdir. Qəbul edilmiş mühüm dövlət sənədləri struktur dəyişiklikləri üzrə sosial-iqtisadi inkişafın biliklərə, elm və texnikanın nailiyyətlərinə əsaslanan, texnoloji innovasiyaları və sənaye müəssisələrinin fəal restrukturizasiyasını stimullaşdıran yeni tipinə keçid vəzifələrini qarşıya qoymuşdur. Yerli sənayenin strukturu inkişaf etmiş və dinamik inkişaf etməkdə olan ölkələrin sənayelərinin strukturundan geri qaldığını nəzərə alsaq, söyləyə bilərik ki, iqtisadiyyatın innovasiyalı inkişafının formalaşması prosesində sənayenin sahəvi strukturunun tədqiq edilməsi nəinki sənayenin strukturunun, həm də bütövlükdə iqtisadiyyatın strukturunun səmərəliliyinə yönəldilmiş bir sıra vəzifələrin həllinə də gətirib çıxardacaqdır. Məhz qeyd olunan bu cəhətlər struktur siyasətin istiqamətlərinin əsaslandırılması və sənayenin strukturunun optimallığının müəyyən edilməsi baxımından onun sahəvi strukturunun formalaşması xüsusiyyətlərinin və qanunauyğunluqlarının üzə çıxarılması probleminin araşdırılmasını aktuallaşdırmışdır.

**Problemin öyrənilmə səviyyəsi.** Sənayenin sahəvi strukturunun formalaşması problemlərinə dair çoxlu sayda elmi tədqiqat işləri yerinə yetirilmişdir. Azərbaycan sənayesinin fərqli aspektlərdə tədqiqinə dair araşdırma aparan yerli iqtisadçı-alimlərdən M. M. Allahverdiyev, A. K. Ələsgərov, T. N. Əliyev, M. C. Atakişiyev, V. D. Axundov, T. Q. Hüseynov, S. K. Hüseynov, R. M. Cəbiyev, T. A. Quliyev, R. E. Mehdiyev, Ş. M. Muradov, A. A. Nadirov, Ə. X. Nuriyev, Z. Ə. Səmədzadə, R. P. Sultanova, F. F. Fərəcov, B. S. Xıdırov, G. Z. Yüzbaşıyeva və başqalarını misal göstərə bilərik. İqtisadiyyatda struktur dəyişikliklərinin rolunun elmi cəhətdən öyrənilməsinə əsasən XIX əsrin sonu-XX əsrin əvvəllərindən başlanılmış, D.Rikkardonun, F.Listin, J.B.Seyin, Y.A.Şumpeterin, V.Zombartın, M.Veberin, Q.Şmollerin, V.A.Mayın, D.Nortun, R.Barrın, L.İ.Abalkinin, İ.V.Boykonun, N.V.Qaponenkonun, D.M.Qvişianinin, S.Y.Qlazyevin, R.S.Qrinberqin, Q.B.Kleynerin, N.D.Kondratyevin, R.Kouzun, O.Y.Krasilnikovun, P.Kruqmanın, B.İ.Mayevskinin, Q.Myurdalın, A.A.Neçayevin, L.P.Noçevkinanın, D.E.Sorokinin, O.S.Suxarevin, Y.V.Yakovsin, Y.Q.Yasinin və başqalarının əsərlərində öz əksini tapmışdır.

Yerinə yetirilən elmi tədqiqat işlərini iki istiqamətdə qruplaşdırmaq olar: 1) konkret sahəvi komplekslərin və onların sahələrarası əlaqələrinin dərindən öyrənilməsi; 2) sahələr sisteminin vahid tam kimi nəzərdən keçirilməsi və ayrıca sahəyə onun elementi kimi yanaşılması. Yerinə yetirdiyimiz dissertasiya işində biz sənayenin sahəvi strukturunun qanunauyğunluqlarının formalaşması və inkişafının təhlili, meydana çıxması və əsaslandırılması, onun texnoloji geriliyini aradan qaldırmaq məqsədilə inkişaf prioritetlərini müəyyən etmək üçün qeyd olunan iki istiqaməti birləşdirməyə çalışmışıq.

**Tədqiqatın məqsədi və vəzifələri**: Tədqiqatın əsas məqsədi araşdırılan problemlə bağlı iqtisadçı alimlərin mövcud elmi yanaşmalarını və konsepsiyalarını tədqiq edib ümumiləşdirərək, sənayenin sahəvi strukturunun formalaşmasının xüsusiyyətlərini aşkara çıxarmaq və əsaslandırmaq, bundan irəli gələrək sahəvi prioritetləri müəyyənləşdirərək problem üzrə elmi-praktiki tövsiyələr işləyib hazırlamaqdan ibarətdir. Qeyd olunan məqsədə çatmaq üçün tədqiqat işində aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- sənayenin sahəvi strukturunun nəzəri-metodoloji əsaslarını tədqiq etmək;
- sənayedə struktur dəyişiklikləri proseslərinə təsir edən şərtləri və amilləri müəyyənləşdirmək;
- müasir iqtisadi inkişafın xüsusiyyətləri və qanunauyğunluqlarının öyrənilməsi əsasında sənayenin strukturunda yaranmış proporsiyaları təhlil etmək;
- sənaye sahələrinin inkişaf dinamikasını tədqiq etmək;
- sənayenin yaranmış maddi-texniki bazasını təhlil etmək;
- iqtisadiyyatın innovasiyalı inkişafı şəraraitində sahəvi prioritetləri və bu prosesdə dövlətin rolunu üzə çıxarmaq.

**Tədqiqatın obyekti** kimi Azərbaycan sənayesinin sahəvi strukturu seçilmişdir.

**Tədqiqatın predmetini** isə sənayenin sahəvi strukturunun formalaşmasının xüsusiyyətlərini əks etdirən iqtisadi münasibətlər sistemi təşkil edir.

**Tədqiqat işinin nəzəri-metodoloji əsasını** iqtisadi qanunlar və kateqotiyalar, yerli və xarici ölkə iqtisadçı alimlərinin öyrənilən problemə həsr olunmuş elmi əsərləri, həmçinin Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, iqtisadi inkişafı təmin edən proqramlar, Milli Məclisin qanunverici normaları, Azərbaycan Respublikası hökumətinin qərarları, proqramları və digər normativ-hüquqi

sənədləri təşkil edir. Tədqiqat prosesində məntiqi, iqtisadi-statistik, analiz metodlarından, müqayisə metodlarından, tədqiqatın kompleksliliyindən, sənayenin struktur dəyişiklikləri prosesinin təhlili həyata keçirildiyi zaman sistemli yanaşmadan, optimal strukturun qiymətləndirilməsində empirik və reqressiv təhlil metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazasını** ETİ-nin statistik və analitik materialları, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası Vergilər Nazirliyinin məlumatları, dövri mətbuat materialları və internet şəbəkəsinin rəsmi məlumatları təşkil edir.

**Tədqiqatın elmi yeniliyi** sənayenin sahəvi strukturunun formalaşmasının aşkar edilmiş xüsusiyyətlərindən irəli gələrək, iqtisadiyyatın innovasiyalı inkişafı şəraitində sənayenin sahəvi prioritetlərinin və optimal strukturunun müəyyənləşdirilməsindən ibarətdir. Elmi yeniliyin elementləri isə aşağıdakılardan ibarətdir:

- iqtisadiyyatın innovasiyalı inkişafı şəraitində struktur irəliləyişlərin qiymətləndirilməsi üçün yerli və xarici ölkələrin iqtisadçı alimlərinin elmi əsərlərinin tədqiqi əsasında bu problemə dair yeni nəzəri və metodoloji yanaşmaların işlənib hazırlanmasının zəruriliyi əsaslandırılmışdır;
- struktur yaradan amillərin təsnifləşdirilməsi baxımından (dövlət və özəl sektor, məhsul buraxılışı, məşğulluq, investisiyalar və əsas fondlar üzrə) sənayenin sahəvi strukturunun optimallaşdırılması şərtləri formalaşdırılmışdır;
- müasir iqtisadi inkişafın xüsusiyyətləri üzə çıxarılmış və sənayenin strukturunda yaranmış proporsiyaların təhlili həyata keçirilmişdir;
- sənaye sahələrinin inkişaf dinamikası və sənayenin yaranmış maddi-texniki bazası tədqiq edilmişdir;
- sənayenin modernləşdirilməsi yolu ilə və klasterial yanaşmadan istifadə etməklə iqtisadiyyatın innovasiyalı inkişafı şəraitində sahəvi prioritetlər müəyyən edilmişdir;
- struktur dəyişikliklərin istiqamətlərinin əsaslandırılması və optimal strukturun formalaşması məqsədi ilə struktur irəliləyişlər qiymətləndirilmiş, yaranmış xüsusiyyətlər çıxış edərək sahəvi prioritetlərin müəyyənləşdirilməsində dövlətin rolunun gücləndirilməsinin əsas istiqamətləri göstərilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, bu problemlə bağlı sənayedə yaranmış vəziyyətin tədqiqinə yeni nəzəri-metodoloji yanaşmalar əsaslandırılmış və bundan irəli gələrək sənayenin sahəvi struktukunun formalaşmasının xüsusiyyətləri, qanunauyğunluqları aşkar edilmişdir.

**Tədqiqatın praktiki əhəmiyyəti** isə ondan ibarətdir ki, irəli sürülən təklif və tövsiyələr dövlət idarəetmə orqanlarında sənayenin inkişafı üzrə konsepsiyalar, strategiyalar və inkişaf proqramlarının işlənib hazırlanmasında istifadə oluna bilər. Əldə olunmuş nəticələr alim və mütəxəssislər, doktorantlar, magistrlər və tələbələr üçün onların sənayenin iqtisadiyyatı sahəsində araşdırmalarında faydalı ola bilər. Həmçinin, dissertasiyanın elmi nəticələrindən "Sənayenin iqtisadiyyatı", "İqtisadiyyatın dövlət tənzimlənməsi" və dgər müvafiq fənnlərin tədrisində də istifadə oluna bilər.

**İşin aprobasiyası və tədqiqatın nəticələrinin tətbiqi.** Dissertasiyanın əsas müddəaları müəllifin respublika və beynəlxalq elmi-praktiki konfranslarda ("III Belarusiya innovasiya forumu", Minsk – 2010; "Gənc alimlərin II Respublika İnnovasiya Yarmarkası" – Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondu, Bakı – 2012; "İqtisadiyyat – müasir cəmiyyətin inkişafının hüquqi paradiqmasıdır" II Beynəlxalq elmi-praktiki konfransı – Donetsk – London – 2013 və s.) çıxışlarında məruzə edilmiş, ən mühüm elmi nəticələrinin praktikada tətbiqi ilə bağlımüddəaları Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin "İqtisadi İslahatlar Elmi-Tədqiqat" İnstitutunda müzakirə edilmiş və bəyənilmişdir (16 dekabr 2013-cü il tarixli №33/33-7/14 saylı məktub). Həmçinin, dissertasiya işinin mövzusu üzrə yerli və xarici ölkə nəşrlərində 7 məqalə və 4 tezis dərc olunmuşdur.

**Dissertasiya işinin strukturu və həcmi.** Dissertasiya işi giriş, üç fəsil, doqquz paraqraf, nəticə və istifadə edilmiş ədəbiyyatdan ibarətdir. Bütövlükdə işin həcmi 162 səhifəni təşkil etməklə 27 cədvəl və 20 sxemi əhatə etmişdir.

## DİSSERTASİYA İŞİNİN MÜNDƏRİCATI

**GİRİŞ.**

**FƏSİL 1. Sənayenin sahəvi strukturunun formalaşmasının nəzəri-metodoloji əsasları.**

1.1 Sənayenin sahəvi strukturunun anlayışı, mahiyyəti və məzmunu.

1.2 Texnoloji quruluşun dəyişilməsi prosesində sənayenin sahəvi strukturunun tədqiqat metodologiyası.

1.3 Qloballaşma şəraitində sənayenin sahəvi strukturunun formalaşmasına təsir edən amillər və şərtlər.

**FƏSİL 2. Qloballaşma şəraitində Azərbaycan sənayesində baş verən struktur dəyişikliklərinin təhlili.**

2.1 Qloballaşma şəraitində Azərbaycan sənayesinin strukturunun mövcud proporsiyalarının təhlili və müasir iqtisadi inkişafın xüsusiyyətləri.

2.2 Qloballaşma şəraitində sənaye sahələrinin inkişaf dinamikası.

2.3 Qloballaşma şəraitində sənaye sektoruna yönəldilən investisiyaların strukturundakı dəyişiklikərin təhlili.

2.4 Qloballaşma şəraitində Azərbaycan sənayesinin maddi-texniki bazası üzrə vəziyyətin təhlili.

**FƏSİL 3. Azərbaycan iqtisadiyyatının innovasiyalı inkişaf şəraitində sahəvi prioritetlərin əsas istiqamətləri.**

3.1 Azərbaycan sənayesində modernləşmə və iqtisadiyyatın innovasiyalı inkişafına klaster yanaşması.

3.2 Mövcud xüsusiyyətlər və qanunauyğunluqlar baxımından sahəvi prioritetlərinin müəyyən olunmasında dövlətin rolu.

Nəticə

Ədəbiyyat siyahısı

Əlavələr

## MÜDAFİƏYƏ TƏQDİM EDİLMİŞ DİSSERTASİYA İŞİNİN ƏSAS ELMİ MÜDDƏALARI.

**1. Yerli və xarici ölkələrin iqtisadçı alimlərinin elmi əsərlərinin tədqiqi əsasında bu problemin həlli üçün iqtisadiyyatın innovasiyalı inkişafı şəraitində struktur irəliləyişlərin qiymətləndirilməsi məqsədilə yeni nəzəri və metodoloji yanaşmaların işlənib hazırlanması zərurəti əsaslandırılmışdır.**

Məlumdur ki, ölkədə aparılan iqtisadi islahatların elmi təminatı vəzifəsinin həllinin zəruriliyi nəticəsində iqtisadçıların diqqəti daha çox onun uğurlarının və uğursuzluqlarının konkret iqtisadi dərkinə, praktiki tövsiyələrin hazırlanmasına və s. cəlb olunmuşdur. Tədqiqatın nəzəri-metodoloji məsələləri bu aspektdə ikinci plana keçməsinə baxmayaraq onların əsaslandırılması və işlənib hazırlanan tövsiyələrin effektivliyinin həlledici olması öz əhəmiyyətini itirməmişdir.

Qeyd etmək lazımdır ki, xüsusiyyətlər və qanunauyğunluqlar haqqında təsəvvürlər hər biri iqtisadiyyatın konkret struktur halını əks etdirən ardıcıl mərhələlər şəklində olan qeyri-bərabər, tsiklik inkişafına əsaslanır. Ona görə də, strukturun təkmilləşdirilməsi problemini qloballaşma və regionlaşma prosesinin gücləndiyi bir dövrdə tarazlaşdırma və proporsionallaşdırmaya artan tələblərə görə nəzərdən keçirmək mütləq lazımdır. Bu mövqe sahələrarası proporsiyalara əvvəlki yanaşmanın dəyişməsini, xalq təsərrüfatının müxtəlif həlqələrinin inkişafının sosial-iqtisadi əhəmiyyətinin fərqli dəyərləndirilməsini əks etdirir. Eləcə də onun texnoloji və istehsal strukturunun keyfiyyət müxtəlifliyi ilə xarakterizə olunması vacibdir.

Zənnimizcə, struktur yenidənqurmanı aşağıdakı kimi nəzərdən keçirmək lazımdır:

– *dar mənada* – struktur deformasiyaların aradan qaldırılması və yeniliklərə qadir, rəqabət üstünlüklərinin gerçəkləşməsi üçün şərait yaradan yeni strukturun əsaslarının yaradılması;

– *geniş mənada* – qeyri-effektiv istehsalların ləğv edilməsi, restrukturizasiya, yeni yüksək texnologiyaya əsaslanan istehsal obyektlərinin yaradılması.

Təbii ki, struktur yenidənqurmanın müsbət göstəricilərinə nail

olmaq üçün (mövcud struktur böhranı, texnoloji böhran, sahəvi strukturun böhranı, institutsional strukturun böhranı) problemin texnologiyalar, sahələr və elmi-tədqiqat institutları ilə qarşılıqlı əlaqədə öyrənilməsi daha məqsədəuyğundur ki, bu da bir neçə mərhələni özündə birləşdirir (bax şəkil 1).

Real struktur dəyişiklikləri iqtisadiyyatın dayanıqlı inkişafına, müxtəlif iqtisadi strukturların fəaliyyətində proporsionallığına və onların inkişafında çatışmazlıqların aradan qaldırılmasına kömək edir. Bu çox önəmlidir, çünki iqtisadiyyatın strukturu təkcə onun bölmələrinin və sahələrinin yığımı deyil, bu həm də onun təsərrüfat fəaliyyətinin müxtəlif sferalarının effektivliyini müəyyən edən elementləri arasında proporsiyaların təmin olunması deməkdir.

**Sənayenin struktur yenidənqurulması və onuntəmin olunma mexanizmləri. Şəkil 1.**




Qeyd: Şəkil müəllif tərəfindən tərtib edilmişdir.

Struktur irəliləyişlərini öyrənərkən üç əsas iqtisadi anlayışı nəzərdən keçirmək lazımdır: birincisi, məşğulluq; ikincisi məhsul; üçüncüsü isə əsas fondlara mülkiyyət formaları üzrə investisiyaların yatırılması. Ona görə də, burada elmi əsaslandırılmış strukturun formalaşmasının mühüm tərkib hissəsi kimi onun təkamülündəki meyilləri başa düşməyə, sənayenin innovasiyalı inkişaf yolundan irəli gələrək struktur dəyişikliklərin əsas xüsusiyyətlərini və qanunauyğunluqlarını üzə çıxarmağa imkan verən elmi əsaslandırılmış strukturun formalaşması çıxış

edir. Bu zaman nəzərə almaq lazımdır ki, bütövlükdə iqtisadiyyatın və sənayenin nəzəri əsaslarında və strukturunun qiymətləndirilməsində olan dəyişikliklər bir sıra metodoloji dəyişikliklərə səbəb olur, yəni metodologiyanın əsaslarına yeni tələblər qoyur. Ona görə də: - dünya iqtisadiyyatının inkişafında dəyişən şəraiti nəzərə aldıqda, yeni inkişaf imkanlarının tapılması; -yeni texnologiyaların tətbiqi ilə mövcud ziddiyyətlərin aradan qaldırılması; - istehsalın təşkilinin yaxşılaşdırılması və mövcud resursların effektivliyinin yüksəldilməsi; - mövcud artımın məhdudlaşdırılmasının və ölkənin sosial-iqtisadi inkişafının mürəkkəbləşməsinin təhlili; - əldə olan imkanların gerçəkləşdirilməsi və zəruri tədbirlərin işlənib hazırlanması məqsədi ilə iqtisadi siyasətin istiqamətlərinin düzgün müəyyənləşdirilməsi üçün yeni metodologiyanın olması önəmlidir. Bu mühüm məsələlər üzrə vəhdətin olmaması sonuncuda baş verən dəyişikliklərə mənfi təsir göstərmişdir.

Məlumdur ki, hər hansı iqtisadi artım sənayenin strukturunda müsbət irəliləyişlərlə müşayiət oluna bilməz. Ona görə də struktur deformasiyalarının düzəldilməsi, sənayenin keyfiyyətcə yeni struktura malik olması üçün sistem şəklində təqdim edilməsi zərurətindən irəli gələn təhlil məqsədəuyğundur. Sənayedə struktur yeniləşməsi aparılarkən endogen və ekzogen amilləri də nəzərə almaq lazımdır. Amillərin bu cür bölgüsü struktur dəyişikliklərin prioritet istiqamətlərinin müəyyən edilməsini təmin edər və sənayenin modernləşdirilməsində dövlət-özəl qarşılıqlı əlaqəsini gücləndirər.

**2. Sənayedə yaranmış sahəvi struktur təhlil edilmiş və bundan irəli gələrək müasir iqtisadi inkişafın xüsusiyyətləri və qanunauyğunluqları üzə çıxarılmışdır**.

Struktur dəyişikliklərinin mahiyyəti, səbəbləri, qanunauyğunluqlarının tədqiqi, struktur irəliləyişlərinin həyata keçirilməsi üzrə strategiya və taktikanın müəyyən edilməsi üçün real əsasın yaradılmasına, ölkənin yeni iqtisadi inkişaf səviyyəsinə çatmasına və rəqabətqabiliyyətli iqtisadiyyatın qurulmasına, bu proses üzrə tənzimlənmə mexanizminin formalaşmasına imkan verəcəkdir. Bu zərurət ondan irəli gəlir ki, yaranmış struktur deformasiyaları (istehsal strukturunun daxili və xarici tələbə uyğun olmaması; istehsalın yüksək materialtutumluluğu, idxal tədarüklərindən asılılığı; əsas fondların aktiv hissəsinin yüksək səviyyəsi; elmtutumlu istehsalların kifayət etməyən inkişaf səviyyəsi və s.) struktur problemlərin həllinə və bunun əsasında məhsulun rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə sistemli yanaşma olmalıdır.

Azərbaycanın keçdiyi transformasiya dövrü iqtisadiyyatda sosialist inkişaf dövründən hələ də mövcud olan dərin problemlərin-struktur problemlərinin üzə çıxarılmasına kömək etmişdir. Bu struktur problemləri çox asan formada bir inkişaf mərhələsindən digərinə keçdi. Lakin, zamanla müasir dövrdə onların həlli təkcə dayanıqlı iqtisadi artımın təmin olunmasından irəli gəlməmiş, həmçinin dayanıqlı inkişaf üçün zərurətə çevrilmişdir.

**Sənayenin sahəvi strukturu (%-lə) Cədvəl 1.**

| **Göstəricilər** | **2005** | **2008** | **2009** | **2010** | **2011** | **2012** | **2013** | **2014** | **2015** |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Sənaye cəmi:** | **100** | **100** | **100** | **100** | **100** | **100** | **100** | **100** | **100** |
| **Hasilat** | **67.4** | **78.4** | **76.7** | **78.9** | **80.5** | **78.8** | **77.2** | **73.0** | **67.0** |
| Xam neft və təbii qaz | 63.8 | 76.7 | 74.5 | 76.4 | 78.0 | 76.2 | 74.1 | 69.6 | 60.3 |
| Əlvan metalların çıxarılması | 0.0 | 0.01 | 0.03 | 0.2 | 0.2 | 0.2 | 0.2 | 0.2 | 0.4 |
| Digər | 0.3 | 0.2 | 0.2 | 0.2 | 0.2 | 0.2 | 0.2 | 0.2 | 0.2 |
| Hasilat sənayesində göstərilən xidmətlə | 3.3 | 1.5 | 2.0 | 2.1 | 2.1 | 2.2 | 2.7 | 3.0 | 6.1 |
| **Emal** | **25.9** | **16.6** | **17.3** | **15.9** | **14.3** | **15.3** | **16.5** | **20.2** | **24.3** |
| Metallurgiya | 2.0 | 1.2 | 0.4 | 0.5 | 0.6 | 1.1 | 0.9 | 0.9 | 0.9 |
| Kimya | 2.4 | 0.76 | 0.62 | 0.45 | 0.6 | 0.6 | 0.6 | 0.82 | 1.4 |
| Əczaçılıq | 0.01 | 0.0 | 0.0 | 0.0 | 0.01 | 0.01 | 0.01 | 0.01 | 0.01 |
| Rezin istehsalı | 0.3 | 0.2 | 0.3 | 0.2 | 0.2 | 0.2 | 0.23 | 0.2 | 0.4 |
| Nəqliyyat vasitələri | 0.22 | 0.17 | 0.1 | 0.05 | 0.04 | 0.04 | 0.06 | 0.34 | 0.25 |
| Metal emalı | 1.9 | 0.6 | 0.5 | 0.5 | 0.3 | 0.5 | 0.3 | 0.4 | 0.6 |
| Elektronika və komp. | 0.09 | 0.07 | 0.2 | 0.2 | 0.2 | 0.2 | 0.3 | 0.2 | 0.3 |
| Maşınqayırma | 0.4 | 0.3 | 0.4 | 0.6 | 0.5 | 0.5 | 0.8 | 0.9 | 0.8 |
| Elektrik cihazları | 0.2 | 0.2 | 0.2 | 0.3 | 0.5 | 0.6 | 0.6 | 0.5 | 0.4 |
| Neft məhsulları | 9.9 | 8.3 | 8.6 | 8.2 | 7.4 | 7.3 | 7.6 | 9.5 | 10.1 |
| Tikinti materialları | 1.6 | 1.2 | 1.7 | 1.7 | 0.8 | 1.0 | 1.2 | 1.7 | 1.8 |
| Ağac emalı | 0.1 | 0.05 | 0.05 | 0.05 | 0.04 | 0.04 | 0.05 | 0.1 | 0.1 |
| Sellüloz-kağız | 0.04 | 0.04 | 0.05 | 0.04 | 0.1 | 0.05 | 0.06 | 0.1 | 0.1 |
| Poliqrafiya | 0.27 | 0.16 | 0.1 | 0.1 | 0.1 | 0.13 | 0.15 | 0.11 | 0.2 |
| Yüngül sənaye | 0.2 | 0.1 | 0.1 | 0.1 | 0.1 | 0.11 | 0.13 | 0.2 | 0.2 |
| Xalçaçılıq | 0.4 | 0.17 | 0.16 | 0.1 | 0.2 | 0.2 | 0.2 | 0.2 | 0.1 |
| Dəri-ayaqqabı | 0.05 | 0.06 | 0.08 | 0.08 | 0.06 | 0.1 | 0.1 | 0.1 | 0.1 |
| Yeyinti sənayesi | 2.4 | 1.7 | 1.9 | 1.5 | 1.5 | 1.5 | 1.7 | 2.0 | 2.5 |
| Şərabçılıq | 0.86 | 0.5 | 0.7 | 0.6 | 0.6 | 0.5 | 0.7 | 0.8 | 0.8 |
| Tütün istehsalı | 0.36 | 0.08 | 0.1 | 0.08 | 0.1 | 0.06 | 0.04 | 0.1 | 0.1 |
| Digər | 2.2 | 0.21 | 1.04 | 0.55 | 0.45 | 0.2 | 0.23 | 0.11 | 3.0 |
| **Elektroenergetika** | **5.7** | **4.4** | **5.4** | **4.6** | **4.7** | **5.3** | **5.6** | **6.0** | **7.7** |
| **Su təchizatı** | **1.0** | **0.6** | **0.6** | **0.6** | **0.5** | **0.6** | **0.7** | **0.8** | **1.0** |

Qeyd: Cədvəl ARDSK-nin göstəriciləri əsasında tərtib edilmişdir.

İqtisadiyyatın gələcək inkişafı və onun modernləşdirilməsi onun xüsusilə də, sənayenin strukturunun dəyişdirilməsi zərurəti ilə sıx əlaqəlidir. Başqa ölkələrdən fərqli olaraq bu gün Azərbaycanda postneft dövrünə hazırlıq məqsədilə yeni gəlir mənbələrinin yaradılması, gəlirliliyinə görə neft sektoruna alternativ ola biləcək istehsal sahələrinin yaradılması üçün müəyyən imkanların olması dövləti qeyri-neft sektorunun inkişaf etdirilməsini prioritetlərdən biri kimi seçməsi ilə səciyyələndirmişdir.

**Sənaye-istehsal heyətinin sahəvi strukturu (%-lə). Cədvəl 2.**

| Göstəricilər | 2005 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Sənaye cəmi:** | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| dövlət | 66.8 | 61.3 | 59.2 | 58.8 | 58.1 | 54.6 | 49.6 | 45.1 | 44.9 |
| özəl | 33.2 | 38.7 | 40.2 | 41.2 | 41.9 | 55.4 | 50.4 | 54.9 | 55.1 |
| **Hasilat** | **21.1** | **19.1** | **19.2** | **20.1** | **20.1** | **20.3** | **20.1** | **18.6** | **18.6** |
| Xam neft və təbii qaz | 13.8 | 13.4 | 13.4 | 13.5 | 13.2 | 13.0 | 12.1 | 11.7 | 11.9 |
| Əlvan metallar | 0.2 | 0.1 | 0.3 | 0.3 | 0.4 | 0.5 | 0.5 | 0.5 | 0.5 |
| Digər | 1.4 | 1.8 | 1.4 | 2.0 | 2.0 | 2.0 | 3.2 | 1.7 | 1.7 |
| Hasilat sənayesində xidmətlər | 5.5 | 3.8 | 4.0 | 4.0 | 3.9 | 4.6 | 4.3 | 4.6 | 4.5 |
| **Emal** | **52.5** | **51.8** | **51.2** | **52.0** | **50.5** | **50.1** | **51.4** | **53.3** | **53.2** |
| Metallurgiya | 5.0 | 4.7 | 4.4 | 4.5 | 4.7 | 4.6 | 3.4 | 4.6 | 2.4 |
| Kimya | 5.6 | 4.6 | 4.7 | 4.7 | 4.3 | 4.1 | 3.8 | 3.2 | 3.3 |
| Əczaçılıq | 0.1 | 0.04 | 0.1 | 0.1 | 0.1 | 0.1 | 0.1 | 0.1 | 0.1 |
| Rezin istehsalı | 2.4 | 2.5 | 2.7 | 2.6 | 2.3 | 2.1 | 2.2 | 2.8 | 2.6 |
| Nəqliyyat vasitələri | 2.5 | 2.5 | 2.7 | 2.6 | 2.0 | 1.6 | 1.5 | 1.5 | 1.5 |
| Metal emalı | 1.9 | 2.3 | 2.7 | 2.5 | 2.5 | 2.7 | 1.5 | 2.1 | 2.1 |
| Elektronika və kompüter | 1.2 | 1.0 | 1.1 | 1.2 | 1.2 | 0.8 | 0.9 | 0.8 | 0.7 |
| Maşınqayırma | 3.7 | 3.0 | 2.2 | 2.6 | 2.4 | 2.5 | 2.4 | 2.1 | 2.1 |
| Elektrik cihazları | 1.9 | 2.5 | 0.9 | 0.9 | 0.9 | 0.7 | 2.7 | 2.8 | 2.6 |
| Neft məhsulları istehsalı | 3.4 | 2.9 | 2.9 | 2.9 | 2.9 | 2.8 | 2.6 | 2.5 | 2.2 |
| Tikinti materialları | 3.4 | 4.6 | 4.1 | 5.0 | 4.1 | 4.7 | 5.4 | 6.6 | 7.0 |
| Ağac emalı | 0.6 | 0.7 | 0.8 | 0.8 | 0.9 | 0.8 | 0.9 | 1.0 | 0.8 |
| Sellüloz-kağız | 0.2 | 0.3 | 0.3 | 0.3 | 0.3 | 0.5 | 0.6 | 0.6 | 0.7 |
| Poliqrafiya | 1.1 | 0.8 | 1.4 | 0.9 | 1.0 | 0.9 | 1.0 | 1.0 | 1.1 |
| Yüngül sənaye | 1.4 | 0.9 | 1.2 | 1.5 | 1.7 | 1.5 | 1.3 | 1.3 | 1.3 |
| Xalçaçılıq | 5.2 | 3.9 | 2.3 | 2.8 | 2.3 | 1.8 | 1.9 | 2.1 | 1.7 |
| Dəri-ayaqqabı | 0.5 | 0.3 | 0.2 | 0.3 | 0.5 | 0.6 | 0.6 | 0.4 | 0.5 |
| Yeyinti sənayesi | 6.7 | 8.0 | 9.0 | 8.3 | 8.2 | 9.3 | 9.5 | 10.4 | 10.0 |
| Şərabçılıq | 2.2 | 2.5 | 2.6 | 2.8 | 3.2 | 3.2 | 2.8 | 2.9 | 3.2 |
| Tütün istehsalı | 0.6 | 0.4 | 0.4 | 0.3 | 0.2 | 0.2 | 0.2 | 0.1 | 0.1 |
| Digər | 4.0 | 4.6 | 4.9 | 3.9 | 4.3 | 4.4 | 5.6 | 5.7 | 6.8 |
| **Elektroenergetika** | **13.9** | **16.1** | **16.5** | **15.6** | **16.5** | **16.3** | **15.4** | **14.9** | **14.4** |
| **Su təchizatı** | **12.3** | **12.8** | **13.0** | **12.1** | **12.7** | **13.1** | **12.9** | **13.0** | **13.6** |

Qeyd: Cədvəl ARDSK-nin göstəriciləri əsasında tərtib edilmişdir.

Təqdim olunmuş cədvəl məlumatlarından aydın olur ki, Azərbaycan iqtisadiyyatının sahəvi strukturu son on il ərzində çox az dəyişmişdir, onun məhsullarının yarıdan çoxu xammal və ya çox dərin olmayan emal məhsullarıdır. Azərbaycan sənayesinin özəl sektoru inkişaf etmiş ölkələrin özəl sektorlarından fərqli olaraq əsas etibarilə xammal, maliyyə vasitəçilik əməliyyatları, ticarətlə bağlı olan sektorlarla təmsil olunmuşdur. Bu, işçi qüvvəsinin xeyli hissəsinin istehsal sahəsindən qeyri-istehsal sahəsinə keçməsini ifadə etmiş və innovasiyalara investisiyalar yatırılmasında marağın az olmasını bildirmişdir. Cədvəl məlumatlarına görə onu da qeyd etmək olar ki, dövlət və özəl sektorlarda məşğulluğun nisbəti inkişaf etmiş ölkələrin göstəricilərinə faiz nisbətində yaxınlaşmasına baxmayaraq "keyfiyyət tərkib" hissəsi hələ o ölkələrin meyarlarına uyğun gəlmir. Həmçinin, onu da bildirək ki, dövlət sektorunun azalması (buna ölkədə aparılan özəlləşdirmə də kömək etmişdir) özəl sektorun genişlənməsindən daha sürətlə getmişdir lakin, hər iki sektorda struktur irəliləyişlərin effektivliyi aşağı olmuşdur. Yəni, bu dövrdə strukturun dəyişməsinin əsas səbəbi kimi aktivlərin bir mülkiyyət formasından digərinə axmasını göstərmək lazımdır.

**3. Dissertaiya işində sənaye sektoruna yönəldilmiş investisiyaların struktur dəyişikliklərinin təhlili aparılmışdır.**

Azərbaycan iqtisadiyyatında müşahidə olunan transformasiya prosesləri investisiya sahəsindən də yan keçə bilməzdi. Sənayeyə investisiya yatırılmasının sahəvi strukturunun təhlilindən aşağıdakı nəticələr əldə olunmuşdur:

- reqressiv struktur irəliləyişlər həyata keçirilməklə iqtisadi artım ekstensiv xarakter daşımış və bu cəhət də hələlik keyfiyyətli iqtisadi artım və inkişafın əsaslarının yaradılmasına kömək edə bilmir;

- texnoloji və istehsal strukturu keyfiyyət müxtəlifliyi ilə xarakterizə olunmuşdur. Belə ki, resursların israfçılığına yol verən həm geridə qalmış, orta, həm də müasir texnologiyalardan eyni anda istifadə olunur ki, bunun da nəticəsi kimi istehsalın strukturu qeyri-tarazlıq vəziyyətində qalçaqdadır;

- maşınqayırmanın texnoloji deqradasiyası, məhsul istehsalının böyük həcminin azalması investisiya potensialının azalmasına, yerli məhsulların rəqabətqabiliyyətliliyinin aşağı düşməsinə dəlalət etmişdir. Yanacaq Enerji Kompleksində daha az enmə xətti sənayenin inkişafının xammal yönümlü olması ilə əsaslandırıla bilər;

- struktur inkişaf ətalətli olması ilə xarakterizə olunmuşdur ki, bunu

da çatışmazlıqlar və deformasiyalar (istehsal vasitələri istehsalı ilə istehlak malları istehsalı arasında, yığımla istehlak arasında proporsiyaların pozulması, xammala yönümlülük, inhisarçılıq, kapitalın sahələrarası axınının aşağı səviyyəsi və s.) təsdiq edə bilər;

- yüksək ixtisaslı elmi, mühəndis-konstruktor və işçi heyətin müəyyən hissəsinin itirilməsi;

- strukturun dezinteqrasiyası aparılan iqtisadi siyasətin qanunauyğun nəticəsi olmuşdur. Belə ki, ölkədə kapital resurslarının böyük hissəsinin manatın məzənnəsinin qorunmasına yönəldilməsi real keyfiyyətli struktur siyasətin aparılması üçün yetərli qədər vəsait olmamasına gətirib çıxartmışdır;

- emal sənayesi sahələrində keyfiyyətli struktur irəliləyişlərin xüsusi çəkisinin aşağı olması;

- məhsul istehsalında sahənin payı azalması, məşğulluq və investisiyalarda payın artması əks istiqamətdə struktur irəliləyişlər müşahidə olunması ilə nəticələnmişdir;

- proqnozların dəyişməsi həmçinin, dayanıqlı olan zəif və nisbətən sabit tələb şəraitində sənayenin istehsal həcmlərini artırmaq cəhdləri hazır məhsulun artıq ehtiyatlarının artmasına və buraxılış planlarının neqativ tərtib olunmasına səbəb olmuşdur;

- tələbi saxlamaq arzusu sənayeni asılı qiymət siyasəti aparmağa məcbur etmişdir. Çünki, xərclərin intensiv artımına baxmayaraq onun daim bahalaşan idxaldan və idxalı əvəzləmə siyasətindən hələ də asılı olması belə siyasətin yürüdülməsinə rəvac vermişdir;

- bəllidir ki, müəssisələr müəyyən istehsal güclərinin ehtiyatına malikdirlər və bu ehtiyat tələb artdıqda yəni, idxalı əvəzləmə zamanı istifadə oluna bilər. İstehsal güclərinin "idxalı əvəzetmə variantı" yalnız o istehsallara aid edilir ki, bu istehsallar artıq ölkə ərazisində mövcuddur. Sənaye sahəsi analoqu olmayan idxalı əvəzləyən məhsulların istehsalını təmin etmək gücündə deyildir;

- bazar münasibətlərinə keçid nəticəsində özəl və dövlət sektorlarının nisbətində xeyli struktur irəliləyişlər baş vermişdir;

- özəl sektorun formalaşması dövlət sektorunun hesabına getmişdir və nəticədə dövlət sektorunun istehsal əsasının dağılması, innovasiyalara investisiyalar yatırılmasında marağı olmayan primitiv özəl sektorun meydana gəlməsi baş vermişdir;

- özəl sektorda dövlət sektoruna nisbətən məşğulluqda əmək haqqına olan xərclər üzrə struktur irəliləyişlərin effektivliyi aşağı düşmüş, dövlət sektorunda isə sabit olaraq artmışdır. Bu da öz növbəsində özəl

sektorun dövlət sektorundan üstünlüyü haqqında mülahizələri təkzib etmişdir;

- investisiyaların bu göstərici üzrə əsas kapitala yönəlməsində özəl sektorun genişlənməsi və dövlət sektorunun payının azalması prosesi getmişdir. Bu zaman əsas kapitala investisiyalar göstəricisi üzrə dövlət sektorunun azalması özəl sektorun genişlənməsindən daha sürətlə getməsi diqqət mərkəzində olmuşdur. Yəni, investisiya prosesinin istiqaməti dövlət sektorundan özəl sektora dəyişilməsinə baxmayaraq, əsas kapitalın yenilənməsi və ya əvəz edilməsi həmişə baş verməmişdir;

- dövlət sektorunda buraxılış payı üzrə struktur irəliləyişin effektivliyi aşağı düşmüş lakin, özəl sektorda artmışdır. Bu zaman bütövlükdə irəliləyişlərin effektivliyi ümumən o qədər də böyük olmamışdır;

- baş verən irəliləyişlərin xarakterinə görə yuxarıda sadalanan göstəricilər üzrə bu irəliləyiş onun inkişafı hesabına deyil, dövlət sektorunun daralması hesabına baş vermişdir. Struktur irəliləyişlər kortəbii olaraq baş vermiş və sənayenin strukturunun yaxşılaşmasına kömək etməmişdir. Daha çox effektivliyə maliyyə və istehsal sahələrində nail olunmuşdur ki, nəticədə iqtisadiyyatda maliyyə sektorunun artması və onun mövqelərinin möhkəmləndirilməsi baş vermişdir. Bu cəhət həm transformasiya dövründə dəyişməmiş və mövcud disproporsiyaların düzəldilməsinə kömək etməmişdir. Məsrəflər strukturu, həm də texnoloji və sahələrarası struktur qeyd olunanları təsdiq edir.

- emal sənayesinə yatırılan investisiyaların xüsusi çəkisinin artmasına baxmayaraq, bu məbləğ emal sahələrində istehsal aparatının modernləşdirilməsi vəzifələrinin həlli üçün kifayət etməmişdir. Emal sənayesi sahələri arasında investisiyaların daha böyük həcmləri metal emalı və yeyinti sahələrinin üzərinə düşür, lakin investisiyaların artımı maşınqayırmada, yüngül və kimya sənayesində, neft emalında, tikinti materialları istehsalında, meşə sənayesində özünü daha çox az göstərdi ki, bu da modernləşdirməni və inkişafın innovasiyalı tərkib hissəsini aşağı salmışdır.

Yuxarıda qeyd edildiyi kimi, iqtisadi artım və inkişaf üçün ən əsas cəhətlər rəqabətqabiliyyətliliyin və sənaye istehsalının yüksəldilməsinə kömək edən struktur dəyişikliklərdir. Bu da öz növbəsində iqtisadi geriliyin aradan qaldırılması və bazarın imkanlarının müasir səviyyəsinin planlaşdırmanın imkanları ilə üst-üstə düşməsi üçün şərait yaratmışdır.

Mövcud artım sürətinə baxmayaraq, bütövlükdə sənayenin inkişafı keçmişdə buraxılmış nöqsanların aradan qaldırılması şəraitində gedir.

Keyfiyyətcə yeni iqtisadi artıma nail olmaq üçün rəqabətqabiliyyətliliyin üstünlüklərinin qlobal iqtisadi inkişafla birlikdə reallaşdırılması və yenilərinin yaradılması çox önəmlidir. Belə ki, iqtisadi artıma struktur dəyişikliklər daha çox kömək etməlidir. Bu prosesə texniki yardımdan düzgün istifadədə böyük təsir göstərir. Əsas sənaye-istehsal fondlarının kəmiyyət göstəriciləri təsərrüfatın istehsal aparatı ilə bağlı işlərin real olaraq nə yerdə olduğu haqqında təsəvvür yaratmır. Çünki, istehsal, material və əmək resursları sferasında həll olunmamış çoxlu problemlərin də olması qaçılmazdır. Ona görə də istehsal aparatının təkmilləşdirilməsinin uyğunluğu çox önəmlidir. Bu uyğunluq elmi-texniki, texnoloji və struktur-investisiya siyasətinin əsas istiqamətlərinə müvafiq olmalıdır. Vaxtında aparılmış struktur manevrləri bəllidir ki, keyfiyyətli iqtisadi artımı və inkişafı təmin edəcəkdir. Bu, o cümlədən iqtisadi artımın təmin edilməsində elmi-texniki və texnoloji tərəqqinin rolunun güclənməsinə, iqtisadiyyatın müxtəlif sahələrində və sektorlarında intensivləşdirmənin yüksəlməsinə səbəb olacaq, struktur irəliləyişlərini sürətləndirəcəkdir. Daha doğrusu bu cəhət iqtisadi artımın yeni modelinə, nəinki sənayenin, həm də bütövlükdə iqtisadiyyatın modernləşdirilməsi üçün investisiyalar gətirən istehsal potensialından səmərəli istifadə edilməsinə və qabaqcıl texnologiyaların elmi-texniki tərəqqinin nailiyyətlərinin mənimsənilməsinə kömək edəcəkdir.

**4. Sənayenin modernləşdirilməsi və klasterli yanaşmadan istifadə etməklə iqtisadiyyatın innovasiyalı inkişafı şəraitində sahəvi prioritetlər müəyyən edilmişdir.**

Nəzərə almaq lazımdır ki, modernləşmənin vacibliyini hamı qəbul etsə də, gerçəkdə hələ ki, bunun həyata keçirilməsi üçün milli iqtisadiyyat kifayət qədər texnoloji və kadr resurslarına malik deyildir. Modernləşdirmənin məqsədəuyğun olmasının əsaslandırılması müasir iqtisadi artımın xüsusiyyətlərindən və qanunauyğunluqlarından irəli gəlməlidir.

Azərbaycanın sənaye müəssisələrində innovasiyaların tətbiqinə mane olan əsas amillərə iqtisadi amillər (maliyyə vəsaitlərinin kifayət qədər olmaması, dövlət tərəfindən yardımın olmaması, qiymətlərin yüksək olması və onların tam xərcinin çıxarılmasının uzun müddəti); istehsal amilləri (müəssisələrin aşağı texniki səviyyəsi, onlar tərəfindən yeniliklərin mənimsənilməməsi, istehsal və elmi kooperasiya üçün informasiya və imkanların çatışmazlığı); qanunvericilik və normativ-hüquqi sənədlərin kifayət qədər olmaması, innovasiya şəbəkəsinin vasitəçi, hüquqi, bank müəssisələri, mütərəqqi texnologiyalar bazarı

şəklində zəif inkişaf etməsi, innovasiyaların tətbiqi müddətlərinin qeyri-müəyyən olması və s aiddir. Ona görə də müasir dünyada əsas hesab edilən və bütün qabaqcıl innovasiyalı şirkətlərin istifadə etdikləri- mənfəət və liderlik nöqteyi-nəzərdən ən effektiv strategiya olan fasiləsiz innovasiyalar strategiyasının tətbiq edilməsi məqsədəuyğundur.

Tədqiqatlar göstərir ki, innovasiyalar və investisiyalar müvafiq olaraq dəyişir və inkişaf edirlər. İnnovasiyalı investisiyalar-əsas kapitala, insan kapitalına, istehsalın texniki və texnoloji yenidən silahlanmasına edilən qoyuluşlardır. Məhz onlar "investisiyalar-innovasiyalar" nisbətinin yaxşılaşdırılmasına innovasiya tərkib hissəsinin xeyrinə kömək edirlər. Müasir mərhələdə innovasiyaların böyük hissəsini dövlətin maliyyələşdirdiyi strateji mühüm sahələrdə meydana çıxması artıq danılmaz faktdır. Bu ondan irəli gəlir ki, bir çox insanlar tərəfindən "innovasiya" anlayışı sona qədər başa düşülməmiş, innovasiya nə üçündür və onu necə yaratmaq olar sualına dolğun cavab tapılmamışdır. Ölkədə ümumi rəqabət səviyyəsinin aşağı olması nəticəsində innovasiyaların kütləvi yaradılması və tətbiqi üçün obyektiv səbəblər hələki yox səviyyəsindədir. Milli iqtisadiyyatın xammal yönümlü olması və bu vəziyyətdən çıxmaq üçün inteqrasiya və texnoloji kooperasiya prinsipləri ilə prioritet sahələrin bazasında tam tsikl işləyən innovasiyalı sənaye klasterlərinin formalaşması olduqca zəruridir. Klaster sənaye üçün innovasiyalı-texnoloji inkişafın alətinə çevrilməlidir. Yəni, klasterial yanaşmanın tədqiqi iqtisadiyyatın özəl sektorunun müəssisələrinin və dövlət elmi-tədqiqat institutlarının innovasiya prosesində qarşılıqlı əlaqəsinin effektivliyini yüksəltməli, elmi-texniki, texnoloji və innovasiya potensiallarının yüksək konsentrasiyası şəraitində rəqabətqabiliyyətli texnoloji istehsalı təşkil etmək məqsədilə yerli və xarici investorlar üçün əlavə motivasiya yaradacaqır. Bu zaman qeyd etmək lazımdır ki, kiçik və orta müəssisələrdən ibarət olan klasterlərin böyük maddi vəsaitləri olmadığı üçün effektiv inkişaf şansı azdır. Ona görə də, kiçik və orta sahibkarlıq üçün iri biznes klasterləri tərkibinə investor və sifarişçi kimi daxilolmalar daha kiçik şirkətlər ilə şəbəkədə qarşılıqlı əlaqəni təmin edəcəkdir. Azərbaycanda sənaye klasterləri yaradılarkən nadir innovasiya sahələrinin üzə çıxarılmasına və inkişafına xidmət edən "ağıllı ixtisaslaşma" prinsipini rəhbər tutmaq lazımdır. Çünki, istehsalın yaranmış strukturu çərçivəsində iqtisadi artım potensialının strateji məhdudluğu nəzərə alınmaqla sadəcə artım yox, həm də perspektiv istiqamətə real yaxınlaşma hədəflənməlidir.

Bütün bunlar biliklərə əsaslanan strukturun formalaşmasının məqsədəuyğun olduğunu üzə çıxarır. Biliklərə əsaslanan strukturun formalaşması mexanizmi isə müəyyən sahələrin inkişafı və onların resurs-istehsal potensialına uyğunluğu nəticəsində gerçəkləşir. Bu mexanizmin əsasında millətin, dövlətin, təsərrüfat subyektlərinin maraqları və bu maraqların gerçəkləşməsinin gedişində onlar arasında qarşılıqlı münasibətlər durur. Təsərrüfat marağı və təsərrüfat qarşılıqlı münasibətlər biliklərə əsaslanan strukturun formalaşması mexanizminin əsas elementləridir.

**5. Bazar münasibətləri şəraitində struktur dəyişikliklərinin istiqamətinin əsaslandırılması və sənayenin optimal strukturunun formalaşması məqsədilə respublika sənayesində struktur irəliləyişlər qiymətləndirilmişdir.**

Bazar münasibətlərinə keçid nəticəsində özəl və dövlət sektorlarının nisbətində xeyli struktur irəliləyişlər baş vermişdir:

- məşğulluq göstəricisi üzrə dövlət sektorunda məşğul olanların sayının azalmasında dayanıqlı meyil müşahidə olunmuşdur. Bu zaman özəl sektor əsasən xammalla, maliyyə-vasitəçilik əməliyyatları, ticarətlə təmsil olunmuşdur. Bu amil onu ifadə edir ki, işçi qüvvəsinin böyük hissəsi istehsal sahəsindən qeyri-istehsal sahəsinə keçmişdir;

- özəl sektorda dövlət sektoruna nisbətən məşğulluqda əmək haqqına olan xərclər üzrə struktur irəliləyişlərin effektivliyi aşağı düşmüş, dövlət sektorunda isə sabit olaraq artmışdır. Bu da özəl sektorun dövlət sektorundan üstünlüyü haqqında mülahizələri təkzib etmişdir ki, nəticədə sözü gedən effektiv dəyişiklik fərqli olmuşdur;

- əsas kapitala investisiyalar göstəricisi üzrə də həmçinin, müəyyən struktur dəyişikliklər baş vermişdir ki, bunlardan da növbəti qanunauyğunluqlar meydana çıxmışdır: bu göstərici üzrə özəl sektorun genişlənməsi və dövlət sektorunun payının azalması müşahidə olunmuş; əsas kapitala investisiyalar göstəricisi üzrə isə dövlət sektorunun azalması özəl sektorun genişlənməsindən daha sürətlə getmişdir;

- buraxılış göstəricisi üzrə aşağıdakı meyil müşahidə olunur: dövlət sektorunda buraxılış payı üzrə struktur irəliləyişin effektivliyi aşağı düşmüş, özəl sektorda isə artmışdır, lakin bu zaman bütövlükdə irəliləyişlərin effektivliyi çox böyük olmamışdır;

- struktur sərbəstlik (K) 2012-ci ilə qədər artıma meyilli olmuş, sonra sürət aşağı düşməyə başlamışdır. Buna 2010-ci ildə böyük artımla müşahidə olunan emal sənayesi təsir etmiş və sonra aşağı düşməyə başlamışdır. Maşınqayırma, kimya və yüngül sənayedə struktur

sərbəstliyin göstəricisi aşağı olmuş və bu zaman enməyə daha meyilli olmuşdur ( şəkil 2).

Şəkil 2




| | 2005 | 2010 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|
| Sənaye, cəmi | 1.032 | 3.236 | 2.477 | 2.238 | 2.376 | 1.239 |
| Maşınqayırma | 0.159 | 0.048 | 0.023 | 0.039 | 0.021 | 0.023 |
| Neftçıxarma və neft emalı | 6.678 | 267.8 | 258.5 | 155.2 | 67.73 | 64.92 |
| Kimya və neft kimyası | 0.707 | 0.2 | 0.261 | 0.164 | 0.229 | 0.2 |
| Yüngül sənaye | 0.714 | 1.58 | 0.72 | 0.69 | 0.48 | 0.43 |

*Qeyd: Şəkil müəlif tərəfindən tərtib edilmişdir.*

- sənayenin qapalılığı göstəricisi aşağı olmuş və enməyə meyilli olmuşdur. Bu göstəricinin azalması struktur sərbəstlik göstəricisinin aşağı düşməsinə kömək etmiş, bu da öz növbəsində məşğulluğun azalmasına və istehsalın texnoloji deqradasiyasına gətirib çıxartmışdır. Araşdırılan illər ərzində emal məhsulları istehsalının xarici ticarət saldosu neqativ olmuş iqtisadiyyatın idxal vasitələrindən, istehsallardan, maşınlar üçün komplektləşdirici detallardan və s. asılılığını artırmışdır.

- iqtisadiyyatın idxaldan asılılığı artmışdır. Respublika iqtisadiyyatında hələ də inkişafın xammal yönümlülüyü saxlanılır. İdxalın payı üstün, istehsal isə artmamış, bu isə öz növbəsində sahələrin fəaliyyətinin yüksək olmayan effektivliyinə dəlalət etmişdir. (şəkil 3).

Şəkil 3




| | 2005 | 2010 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|
| Sənaye, cəmi | -33 | -44.7 | -51.4 | -80.9 | -72.8 | -42.3 |
| Maşınqayırma | 119 | 105 | 102.3 | 104 | 102.1 | 102.3 |
| Neftçıxarma və neft emalı | -17.6 | -0.37 | -0.38 | -0.64 | -1.4 | -1.1 |
| Kimya və neft kimyası | 34 | 124.9 | 135.1 | 119.5 | 129.5 | 124.9 |
| Yüngül sənaye | 34.5 | 17.3 | 38.5 | 12.3 | 19.1 | 17.5 |

*Qeyd: Şəkil müəlif tərəfindən tərtib edilmişdir.*

- struktur irəliləyişi üzrə mövcud çatışmazlıq dövlət sektorunun yüksək payından asılı olmamışdır. Yəni, islahatlar dövründə çəki faizi çox azalmış və onun hesabına özəl sektor, biznesin formalaşması baş vermişdir. Ona görə də sənayenin strukturunun dəyişməsi vəzifələrini eyni vaxtda onun effektivliyinin artması ilə birlikdə həll etmək üçün dövlət sektorunun payını yüksəltmək lazımdır. Proporsiyalar xammal və istehsalda geridə qalmış strukturun qanunauyğunluğunun dəyişməsi üçün xarici amillərdən asılı olmadan formalaşmalıdır. Beləliklə, qeyd etmək olar ki, baş verən irəliləyişlərin xarakterinə görə yuxarıda sadalanan göstəricilər üzrə onun inkişafı hesabına deyil, dövlət sektorunun daralması hesabına baş vermişdir. Struktur irəliləyişlər kortəbii olaraq baş vermiş və sənayenin strukturunun yaxşılaşmasına kömək etməmiş, iqtisadiyyatda maliyyə sektorunun artmasına və onun mövqelərinin möhkəmləndirilməsinə səbəb olmuşdur.

**6. Mövcud qanunauyğunluqlardan irəli gələrək, sahəvi prioritetlərin müəyyən edilməsində dövlətin rolunun gücləndirilməsinin məqsədəuyğunluğu üzə çıxarılmışdır.**

Dissertasiyada müəllif, iqtisadiyyatın innovasiyalı inkişafı şəraitində sahəvi prioritetləri müəyyən etmiş, Azərbaycan iqtisadiyyatının mövcud inkişaf xüsusiyyətləri və qanunauyğunluqlarından irəli gələrək onların təyin edilməsində dövlətin rolunun gücləndirilməsi məqsədəuyğunluğu üzə çıxarılmışdır. Azərbaycanda dayanıqlı iqtisadi artım dinamikasının qorunub saxlanılması üçün, sənayenin qeyri-neft sektoru sahələrinin inkişafı üzrə kompleks tədbirlərin aparılması vacibdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz çıxışında qeyd etmişdir: «Azərbaycanın əsas məqsədi-xarici bazarlara qeyri-neft sektorunun məhsulunun ixracıdır»[1]. Biz hesab edirik ki, qarşıya qoyulmuş məqsədə çatmaq üçün, ölkədə aşağıdakı kompleks tədbirlərin həyata keçirilməsi vacibdir:

- Kimya sənayesinin inkişafı baxımından: sahəvi və ərazi strukturun təkmilləşdirilməsi; kimya-sənaye parkının yaradılması üzrə işlərin davam etdirilməsi; əsas məhsul növlərinin ixracının genişləndirilməsi; kimya sənayesi məhsullarının istehlakçıları olan sahələr tərəfindən tələbin artırılması; sənaye müəssisələrinin maliyyə vəziyyətinin yaxşılaşdırılması; kimya sənayesi müəssisələrində enerji istehlakının azaldılması; xammal, material və hazır məhsulların idxalından asılılığının

[1]https://news.day.az/politics/873187.html

azaldılması; kənd təsərrüfatı üçün aqrokimyəvi məhsulların istehsalının genişləndirilməsi və s.

- Qara və əlvan metallurgiya sahəsinin inkişafı baxımından: əlvan və qiymətli metalların istehsalını genişləndirmək, yeni əlvan metal yataqlarının kəşfiyyatını və işlənməsini aparmaq; rəqabətqabiliyyətli və ixraca istiqamətlənmiş məhsulların istehsalını stimullaşdırmaq məqsədəuyğundur.

- Maşınqayırmanın inkişafı baxımından: bu sahənin yüksək texnoloji avadanlıqla təchizatı; sahə məhsulunun çeşidinin genişləndirilməsi və onun istehlak xüsusiyyətlərinin yaxşılaşdırılması; xarici və daxili bazar üçün rəqabət qabiliyyətli yüksək texnoloji və elmtutumlu məhsul buraxılışının artımının sürətləndirilməsi; sənaye fəaliyyətinin ətraf mühitə təsirinin ekoloji təhlükəsiz səviyyəyə qədər azaldılması.

- Enerji sənayesinin inkişafı baxımından dövlət tərəfindən aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur: yeni stansiyaların tikintisi; enerji ötürən stansiyaların və sistemlərin yenidən qurulması; alternativ enerji mənbələrindən istifadə; enerji sektorunda sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və s.

- Sənayenin toxuculuq, yun, tikiş, geyim istehsalı və ipəkçilik sahələrində böyük imkanlar vardır.

- Yeyinti sənayesi məhsullarının rəqabətqabiliyyətinin artırılması üçün aşağıdakı istiqamətlər prioritetdir: yerli yeyinti sənayesi məhsullarının istehsalının artırılması məqsədi ilə antidempinq siyasətinin tətbiqi; məhsulun keyfiyyətinin təmin edilməsi; bütün istehsal proseslərinin mexanikləşdirilməsi və avtomatlaşdırılması; itkilərin azaldılması məqsədi ilə məhsulun saxlanılması, nəqli və emalı üçün ən yeni texnologiyaların tətbiqi.

Azərbaycan iqtisadiyyatının gələcək inkişaf məqsədlərini və iqtisadi siyasət prioritetlərini müasir iqtisadi artım və mövcud rəqabət üstünlüklərinin obyektiv qanunauyğunluqlarından irəli gələrək müəyyən etmək lazımdır. Bizə görə ölkənin müasir inkişaf mərhələsində bunlar məqsədəuyğundur: istehsalın keyfiyyət parametrlərinin və məhsul buraxılışının artırılması, resurslara qənaət, geniş təkrar istehsal tipinin gücləndirilməsi, ən yeni elmtutumlu sahələrin sürətlə inkişafı.

**7. Dissertasiya işində qloballaşma şəraitində Azərbaycan sənayesinin sahəvi strukturunun formalaşmasının təkmilləşdirilməsi üzrə konkret nəticə və təkliflər irəli sürülmüşdür.**

Onlara aiddir:

- müasir dünyada əsas olan və bütün aparıcı innovativ şirkətlərin istifadə etdikləri fasiləsiz innovasiyalar strategiyasının tətbiqi;

- innovasiyalı inkişafın əsas şərt kimi qəbul edilməsi, çünki o, iqtisadi inkişafın və səmərəli rəqabətin əsas mənbəyi olaraq bir çox problemlərin həllinə dəstək verəcəkdir;

- sənaye sahələrinin modernləşdirilməsini, texnoloji bazanın irimiqyaslı yenilənməsi və güclü innovasiya kompleksinin yaradılması şərti ilə aparmaq məqsədəuyğundur. Bir-birini tamamlayan bu istiqamətlər istehsalat potensialında təbii nailiyyətlərə və ya təbii tələbatlara əsaslanaraq dayanıqlı iqtisadi inkişafın əsasını yaradacaqdır;

- sənayenin perspektiv sahələri əsasında «texnoloji özək» yaratmaq vasitəsi ilə rəqabət üstünlüklərinin gücləndirilməsi məqsədəuyğundur (texnologiyalara və təcrübə işləmələrinə tam xidmət tsikli);

- inteqrasiya və texnoloji əməkdaşlıq prinsipləri əsasında prioritet sənaye sahələrində tam dövrlü innovativ sənaye klasterlərini formalaşdırmaq lazımdır. Klaster sənaye üçün innovasiyalı texnoloji inkişaf aləti olmalıdır;

- sənaye sahələrinin mütərəqqi strukturunun formalaşması sahəsində fəal dövlət siyasəti, xalq istehlakı mallarının istehsalında və innovasiya sektorunda daxili istehsalın və investisiyaların stimullaşdırılması (idxalın əvəzlənməsi), məhsul idxalının və xammal ixracının məhdudlaşdırılması;

- struktur və sənaye siyasəti prioritetlərinin əsasında elə inkişaf istiqamətləri müəyyənləşdirilməlidir ki, onların hələ də rəqabət üstünlüyü mövcud olsun (real və potensial);

- sahəvi strukturun optimallaşdırılması əsasında özündə texnoloji prioritetləri ehtiva edən texnoloji prioritetlər konsepsiyasının tətbiqi məqsədəuyğundur.

**Dissertasiya işinin əsas nəticələri aşağıda sadalanan əsərlərdə əks olunmuşdur:**

1. Бабаева А. Н. Сдвиги в характере инвестиционного процесса// Modernləşmə və sosial-iqtisadi inkişafın regional problemləri mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, Bakı- 2009

2. Структурные сдвиги и экономическая политика Азербайджана. //Известия НАНА, серия экономических наук, Б., Элм, 2010, вып. 3;

3. Проблемы оптимальной отраслевой структуры. // Материалы международной научно-практической конференции «III Белорусский инновационный форум», Минск – 2010;

4. Оценка финансовых возможностей промышленного предприятия в условиях глобализации. // Фонд Развития Науки при Президенте Аз. Респ. "II Республиканская Ярмарка Инновативных Идей молодых ученых" Материалы научной конференции; Баку-2012;

5. Отраслевая структура промышленности Азербайджана в спектре национальных экономических интересов. // Научно-практический журнал «Инвестиции: практика и доводы», Киев – 2013, №12;

6. Приоритетное направление-развитие ненефтяного сектора в Азербайджане. //Материалы II международной научно-практической конференции "Экономика-правовая парадигма развития современного общества.", Донецк –Лондон, 2013;

7. Перспективы развития и совершенствования структуры промышленности Азербайджана в условиях глобализации**.** // Институт Экономики НАНА.; Научные статьи, Выпуск I, Баку-2014;

8. Тенденция развития промышленности Азербайджана и проблемы структурной деформации (период 2005-2012 гг.) // Актуальные проблемы гуманитарных и естественных наук// № 4, Москва. – 2014

9. Роль государства в определении отраслевых приоритетов с учетом сложившихся закономерностей. //Материалы республиканской научно-практической конференции, посвященной 95-летию БГУ "Особенности экономико-политических особенностей дипломатических отношений в условиях глобализации." // Баку – 2014

10. Определениеотраслевых приоритетов в промышленности Азербайджана с учетом сложившихся закономерностей. //Институт Экономики НАНА.; Научные статьи, Выпуск III, Баку-2014;

11. Развитие инновационного производства в промышленности Азербайджана: проблемы и перспективы. //«Экономика и предпринимательство», №2, Роспечать «Газеты и журналы»-2016

**Айнур Наби кызы Бабаева**

# ОСОБЕННОСТИ ФОРМИРОВАНИЯ ОТРАСЛЕВОЙ СТРУКТУРЫ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ

## РЕЗЮМЕ

Диссертация состоит из введения, трех глав, выводов и рекомендаций, а также списка использованной литературы.

Во введении отражена актуальность исследования, сущность поставленных в диссертационной работе проблем, цель и задачи исследования, его основные положения, научные основы полученных результатов исследования, а также их практическая ценность.

В первой главе под названием «Теоретико-методологические основыформирования отраслевой структурыпромышленности» раскрывается понятие, сущность и содержание отраслевой структурыпромышленности, методология исследования отраслевой структурыпромышленности в процессе смены технологическогоуклада, а также указываются факторы и условия, влияющие на формирование отраслевой структуры промышленности.

Во второй главе под названием «Анализ динамики структурных изменений в промышленности в условиях глобализации.» исследуются особенности современного экономического развития и проводится анализ сложившихся пропорций в структурепромышленности страны. Также показывается динамика развития отраслей промышленности за последние годы, анализируются изменения структуры инвестиций и сложившаяся материально-техническая база промышленности Азербайджана.

В третьей главе под названием «Основные направления отраслевых приоритетов в условиях инновационного развития экономики» рассматриваются вопросы модернизации промышленности и кластерный подходк инновационному развитию экономики, а также раскрывается роль государства в определении отраслевых приоритетовс учетом сложившихся особенностей и закономерностей.

В заключении диссертации, в соответствии с объектом и предметом исследования, приводятся соответствующие научные выводы и предложения.

**Aynur Nabi Babayeva**

**PECULIARITIES OF INDUSTRIAL STRUCTURE FORMATION IN AZERBAIJAN UNDER GLOBALIZATION**

# SUMMARY

The dissertation consists of introduction, three chapters, conclusions and recommendations, and also the list of the used literature.

Relevance of research, essence of the problems put in dissertation work, the purpose and research problems, its basic provisions, scientific bases of the received results of research, and also their practical value are reflected in introduction.

In the first chapter, entitled "Theoretical and methodological bases of the formation of industrial structure", the concept, essence and content of the industrial structure, the methodology for researching the industrial structure in the process of changing the technological structure, as well as the factors and conditions that affect the formation of the industrial structure are disclosed.

In the second chapter, entitled "Analysis of the dynamics of structural changes in industry in globalization," the features of modern economic development are explored, the prevailing proportions in the structure of the country's industry are analyzed. Also, the dynamics of the development of industries in recent years is shown, changes in the structure of investments and the existing material and technical base of the industry of Azerbaijan are analyzed.

In the third chapter, entitled "The main directions of sectoral priorities under innovative economic development", the issues of industrial modernization and the cluster approach to the innovative development of the economy are considered, the role of the state in determining sectoral priorities, with the consideration of the established features and patterns, is disclosed.

In the conclusion of the thesis, in accordance with the object and subject of the study, the relevant scientific conclusions and suggestions are given.